# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2024-cü il ərzində fəaliyyətinə dair

# Hesabat

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
## 2024-cü il

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

| | | | | |
|---|---|---|---|---|
| **15** Beynəlxalq konfrans | **1** Ölkədaxili konfrans | **7** Seminar və mühazirə | **10** Dəyirmi masa | **4** Təqdimat |
| **2** Sərgi | **16** Nümayəndə heyəti ilə görüş | **2** Beynəlxalq yay və qış məktəbi | **9** Xüsusi televiziya verilişi | **5** Xüsusi xarici müsahibə |
| **340** Məqalə | **2** Əməkdaşlıq memorandumu | **2** Treninq | **9** Xarici universitetdə tədrisin təşkili | **38** Yerli universitetdə tədrisin təşkili |

## I bölmə

## Ölkə daxilində konfranslar, dəyirmi masalar, seminarlar, tədbirlər, təqdimatlar, görüşlər

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| 1. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) sədri şeyx Faiq Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş təşkil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 17 yanvar, 2024-cü il, BBMM | Görüş | Görüş zamanı Gürcüstan Respublikasında yaşayan etnik Azərbaycanlıların ibadətləri, təhsil və mədəniyyət hüquqları ilə bağlı bir sıra məsələlər müzakirə olunmuş və gələcək əməkdaşlıq mövzuları haqqında fikir mübadiləsi aparılmışdır. |
| 2. | 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr edilmiş anım tədbiri keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 19 yanvar, 2024-cü il, BBMM | Anım tədbiri | Tədbir Şəhidlər Xiyabanının ziyarəti, daha sonra dəyirmi masa müzakirəsi formatında keçirilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.** | “Holokost soyqırımı müasirlərin gözü ilə” mövzusunda dəyirmi masa keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 29 yanvar 2024-cü il, BBMM | Dəyirmi masa | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə İsrailin Azərbaycandakı səfiri Corc Dik, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və Azərbaycanda fəaliyyət göstərən milli və dini icmaların rəhbərləri iştirak ediblər. |
| **4.** | “Heydər Əliyev və multikultural təhlükəsizlik” kitabının təqdimat mərasimi keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 31 yanvar 2024-cü il, BBMM | Təqdimat | Akademik Kamal Abdullayevin müəllifliyi ilə nəşr olunmuş kitab Ulu Öndərin multikulturalizm ənənələrini dövlət siyasəti müstəvisinə qaldırmasından və dövlət təhlükəsizliyinin ayrılmaz tərkib hissəsi olmasından bəhs edir. Təqdimat mərasimində etnik, dini icmalarla yanaşı, millət vəkilləri, alimlər və dövlət qurumlarının rəsmiləri də iştirak etmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5.** | Avstriya parlamentinin nümayəndəsi Martin Engelberq ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 fevral 2024-cü il, BBMM | Görüş | Görüş zamanı qonağa Azərbaycan multikulturalizm modeli haqqında, Mərkəzin fəaliyyət istiqamətləri və eyni zamanda işğaldan azad olunmuş ərazilərimizdə dağıdılmış mədəni irsimiz haqqında geniş məlumat verilmişdir. |
| **6.** | "Qafqaz diyarının xəritəsi - Tiflis 1847-ci il" nəşrinin təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Qərbi Azərbaycan İcması | 20 fevral 2024-cü il, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası | Təqdimat | 1847-ci ilin xəritəsi Gürcüstan Hərbi Topoqrafik Baş Qərargahı və Çar Rusiyası tərəfindən hazırlanmış xəritədir. Nəşr Qərbi Azərbaycan torpaqlarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. |
| **7.** | "Xocalı soyqırımı"nın 32-ci ildönümü ilə bağlı anım tədbiri keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 23 fevral 2024-cü il, BBMM | Anım tədbiri | Tədbirdə tarixçi alimlər, Xocalı şahidləri, Azərbaycanda yaşayan etnik icmaların və dini konfessiyaların rəhbərləri iştirak və çıxış etmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **8.** | Avstriya Respublikası Milli Şurasının Avstriya-Cənubi Qafqaz Parlament Qrupunun nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 4 mart 2024-cü il, BBMM | Görüş | Görüşdə Azərbaycanı Mərkəzin icraçı direktoru Rəvan Həsənov ilə yanaşı Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Milli Məclisin komitə sədri Tahir Mirkişili, QMİ-nin sədr müavini Qəmər Cavadlı, Azərbaycanda Katolik Kilsəsinin Yepiskopu Vladimir Fekete, Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov və Azərbaycan-Gürcü Yəhudi İcmasının sədri ravvin Zamir İsayev iştirak edib. |
| **9.** | Lənkəranda Ümummilli Lider Heydər Əliyevə həsr edilən "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" kitabının təqdimat mərasimi keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 8 aprel 2024-cü il, Lənkəran | Təqdimat | Kitab talış icması tərəfindən Azərbaycan və talış dillərində nəşr olunub. İlkin təqdimat da talışların kompakt yaşadıqları bölgədə təşkil edilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **10.** | Ukrayna Ali Radasının Sədr müavini Olena Kondratyukun rəhbərliyi altında nümayəndə heyəti ilə görüş keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 may 2024-cü il, BBMM | Görüş | Görüşdə Mərkəzin icraçı direktoru Rəvan Həsənovla yanaşı Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev, BBMM Himayəçilik Şurasının üzvü, xalq yazıçısı Elmira Axundova, Azərbaycan-Ukrayna Konqresinin sədri Yuriy Osadçenko və Mərkəzin əməkdaşları iştirak edib. Sonda qonaqlara Mərkəzin nəşr etdirdiyi kitablar hədiyyə olunub. |
| **11.** | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” adlı VII Beynəlxalq elmi konfrans təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 7 may 2024-cü il, Azərbaycan Dillər Universiteti | Beynəlxalq elmi konfrans | Konfransda müxtəlif xarici dövlətlərdən elm və təhsil nümayəndələri, alimlər, ziyalılar, dini icma rəhbərləri iştirak ediblər. Türkiyə, Pakistan, Rusiya, Braziliya, Mərakeş, Almaniya, Serbiya, Rumıniya və Özbəkistandan iştirakçıların qatıldığı konfrans öz işini bölmə iclasları ilə davam etdirib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **12.** | Amerika Sefarad Federasiyasının icracı direktoru Ceyson Quberman, Scarab Rising-in prezidenti İrina Tsukerman ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 8 may 2024-cü il, BBMM | Görüş | Görüşdə Azərbaycandakı tolerant və multikultural mühit, yəhudi icmalarının vəziyyəti, eləcə də gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. Qeyd edək ki, Amerika Sefarad Federasiyası Sefarad yəhudilərinin dini və mədəni fəaliyyətini təşkil edən, ABŞ-da Sefarad irsini, ənənəsini və mədəniyyətini qoruyan qurumdur. |
| **13.** | Fransız Polineziyası nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Təşəbbüs Qrupu | 1 iyun 2024-cü il, Bakı şəhəri | Görüş | Görüş zamanı neokolonializm ilə mübarizənin əhəmiyyəti, BBMM-in müəyyən layihələrində iştirak və dəstək göstərilməsi məsələləri müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **14.** | Azərbaycanda təhsil alan İraq Türkmən tələbələrlə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 iyun 2024-cü il, BBMM | Görüş | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Türkmənlərlə əlaqələrin intensivləşməsi, Türkmən gənclərinin layihələrə cəlb olunması istiqamətində fəaliyyəti mövcuddur. İraq türkmənləri ilə ortaq mədəni irsimizin öyrənilməsinin əhəmiyyəti nəzərə alınaraq mütəmadi görüşlər keçirilir. |
| **15.** | Beynəlxalq Bəhai İcmasının BMT-dəki nümayəndələri Bani Duqal və Daniel Perell ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11 iyun 2024-cü il, BBMM | Görüş | Görüşdə Azərbaycan multikulturalizm modeli haqqında qonaqlara ətraflı məlumat verilib və Azərbaycanda Bəhayi İcmasının fəlaiyyəti müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **16.** | Almaniyanın Süryani Ortodoks Kilsəsinin nümayəndə heyətinin Azərbaycana səfəri təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycanın Almaniyadakı Səfirliyi | 18-20 iyun 2024-cü il, Bakı şəhəri | Rəsmi səfər | Nümayəndə heyətinin tərkibinə Almaniyadakı Süryani Pravoslav Kilsəsinin Ekumenik Məsələlər üzrə Arxiyepiskopu Julius Hanna Aydın, Süryani Ortodoks Mor Yaqub Dasruq Kilsəsinin Arxidyakonu Abuna Murat Üzel, Fray Universitetinin əməkdaşı Susi Üzel, Süryani icmasının və Süryani kilsənin 12 nəfərlik idarə heyətinin sədri Andreas Çelik daxil edilmişdi. Səfər çərçivəsində Azərbaycanda fəaliyyət göstərən xristian dini icmalarla və dövlət qurumları ilə görüşlər təşkil olunmuşdur. |
| **17.** | Qarabağ Qaziləri İctimai Birliyinin və Mərkəzin təşkilatçılığı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində şəhid ailələrinin görüşü keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qarabağ Qaziləri İctimai Birliyi | 27 iyun 2024-cü il, BBMM | Görüş | Görüşdə Vətən uğrunda şəhid olan müxtəlif xalqların nümayəndələrinin yaxınları, qazilər, ziyalılar iştirak ediblər. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **18.** | “Azərbaycanda yaşayan tatların etno-konfessional tarixi” mövzusunda dəyirmi masa keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Azəri” Tat Mədəniyyət Mərkəzi İctimai Birliyi | 28 iyun 2024-cü il, BBMM | Dəyirmi masa | Tədbirdə Azərbaycanda yaşayan tatların tarixi, multikultural mühitdə həyat tərzi və ədəbiyyatı müzakirə olunub. |
| **19.** | Belçikanın Vlaamse Radio və Televiziya qurumunun tanınmış telejurnalisti Chris Michel ilə görüş keçirilib və həmin kanala xüsusi müsahibə verilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 3 iyul 2024-cü il, BBMM | Xüsusi müsahibə | Müsahibədə Azərbaycanın post müharibə dövründə işğaldan azad edilmiş ərazilərdə gördüyü işlər və həmin bölgədəki tarixi, dini abidələrin bərpası haqda geniş söz açılıb. |
| **20.** | Qəmər Adalarının nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Təşəbbüs Qrupu | 2 sentyabr 2024-cü il, BBMM | Görüş | Nümayəndə heyətinin tərkibinə Qəmər Adalarının və onun tərkib hissəsi olan Mayot adasının ictimai-siyasi xadimləri, diplomatlar, elmi dairələrinin nümayəndələri qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasi partiyalarının üzvləri daxil olublar. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **21.** | İspaniya Dövlət Teleradiosunun həftəlik informasiya icmalının həmmüəllifi jurnalist Mariya Anxeles Rodriqes Qonzales ilə görüş keçirilib və xüsusi müsahibə təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7 sentyabr 2024-cü il, BBMM | Xüsusi müsahibə | Rəvan Həsənov qonağa mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verib. Görüşdə Azərbaycan multikulturalizmi və tolerantlıq ənənələri haqqında və işğaldan azad olunmuş ərazilərimizdəki dağıdılmış mədəni irsimiz ilə bağlı müzakirə aparılıb. |
| **22.** | Tailand Krallığının Xarici İşlər Nazirliyinin və aidiyyatı qurumlarının nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11 sentyabr 2024-cü il, BBMM | Görüş | Görüş zamanı qonaqlara Mərkəzin fəaliyyəti, Azərbaycan multikulturalizm modeli haqqında geniş məlumat verilib və gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. |
| **23.** | "Dini etiqad azadlığı və azad mediada: sərhədlər haradan başlayır" mövzusunda keçirilən konfransda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 23 sentyabr 2024-cü il, Şuşa şəhəri | Konfrans | Konfransda Mərkəzin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. |
| **24.** | Böyük Britaniya Müsəlman Şurasının rəhbəri Zara Məhəmməd ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 24 sentyabr 2024-cü il, BBMM | Görüş | Görüşdə əsasən İslamofobiya ilə mübarizədə hər iki təşkilatın qarşılıqlı əməkdaşlıq etməsinin vacibliyi müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **25.** | “Azərbaycanda yaşayan azsaylı xalqların etnoqrafik özəllikləri” mövzusunda dəyirmi masa keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 27 sentyabr 2024-cü il, Azərbaycan Dillər Universiteti | Dəyirmi masa | Dəyirmi masada ADU-nun Multikulturalizm mərkəzinin müdiri Loğman Rəşidzadə, Regionşünaslıq kafedrasının müdiri professor Sevdagül Əliyeva, BBMM-nin Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Azərbaycanda yaşayan Axısxa Türkləri "Vətən" İctimai Birliyinin sədr müavini Yusif Səfərov və “Buduq” Xeyriyyə Cəmiyyətinin sədri Rafiq Abdullayev çıxış ediblər. Çıxışlarda Azərbaycanın etno-mədəni müxtəlifliyindən, burada yaşayan azsaylı xalqların etnoqrafik özəlliklərindən bəhs olunub. Vurğulanıb ki, Azərbaycanda dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar bərabərhüquqludurlar. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **26.** | Malayziyanın Baş nazirinin siyasi məsələr üzrə müşavirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 10 oktyabr 2024-cü il, BBMM | Görüş | Görüş zamanı Azərbaycanın tolerantlıq dəyərləri haqqında və Mərkəzin fəaliyyəti haqqında qonaqlara məlumat verilib, eyni zamanda cari ildə Mərkəzin Malayziyaya səfəri zamanı ölkənin baş naziri ilə müzakirə olunan əməkdaşlıq məsələləri detallı şəkildə müzakirə olunub. |
| **27.** | “Yaşıl dünya naminə həmrəylik və etno-mədəni müxtəliflik” mövzusunda dəyirmi masa təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 10 oktyabr 2024-cü il, BBMM | Dəyirmi masa | Tədbirdə Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələri və dini icmalar yaxından iştirak etmiş və ölkəmizdə keçiriləcək COP29 Konfransı öncəsi iqlim dəyişikliyi və etno-mədəni müxtəlifliyin qarşılıqlı təsirləri müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **28.** | Quba Soyqırımı Memorial Kompleksi və “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun müraciətinə əsasən, həmin qurumların əməkdaşları üçün treninq keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7-11 oktyabr 2024-cü il, BBMM | Treninq | Treninq çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, BBMM-in İnformasiya təminatı və sənədlərlə iş şöbəsinin müdiri Yadigar Məmmədli, Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Azərbaycan Tarix Muzeyinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Əli Fərhadov, Azərbaycan Dillər Universitetinin Fəlsəfə və ictimai elmlər kafedrasını müəllimi Leyla Hacıyeva, Mərkəzin baş məsləhətçisi Araz Qurbanov, aparıcı məsləhətçi Billurə Aslanova, məsləhətçi Tahirə Ələsgərova mühazirə oxuyublar. İştirakçılara “Azərbaycan multikulturalizmi fənninin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | predimeti və əhəmiyyəti", "Dünya ölkələrində multikulturalizm modelləri", "Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində tolerantlıq və multikulturalizm ideyaları", "Çoxkonfessiyalıq və Azərbaycan Respublikasının multikulturalizm siyasəti", "Azərbaycançılıq və multikulturalizm", "Müasir dövrdə Azərbaycanda multikulturalizm" və digər mövzularda mühazirələr təqdim edilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **29.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin də həmtəsisçisi olduğu Beyin Mərkəzləri Platformasının və onun internet portalının təqdimatı keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Sosial Tədqiqatlar Mərkəzi, İnkişaf və Diplomatiya İnstitutu, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzi, Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi | 21 oktyabr 2024-cü il, Bakı şəhəri | Təqdimat | Beyin Mərkəzləri Platforması Azərbaycanda siyasi, iqtisadi, daxili, ekoloji və digər əhəmiyyətli istiqamətlər üzrə ixtisaslaşan beyin mərkəzlərinin şəbəkəsidir. Platformanın yaradılmasında əsas məqsəd beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması, dövrün tələblərinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında mütəmadi kommunikasiya və əməkdaşlığın qurulması, həmçinin beyin mərkəzlərinin fəaliyyətləri barədə ictimaiyyətdə məlumatlılığın artırılmasıdır. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **30.** | ABŞ-nin “Dinlərarası Qonşuluq Şəbəkəsi” üzvlərindən ibarət nümayəndə heyəti - Dinlərarası Qonşuluq Şəbəkəsinin həmtəsisçisi, Qlobal Məsələlər İnstitutunun prezidenti və Texasdakı “Northwood” kilsəsinin baş pastoru Bob Roberts, Qlobal Məsələlər İnstitutunun vitse-prezidenti Ceyms Çen, Microsoft Korporasiyasının xarici əlaqələr üzrə baş direktoru və dini azadlıq məsələləri üzrə xristian beyin mərkəzi olan Qlobal İştirak İnstitutunun baş elmi işçisi Suheyl Xan Berkli, Daniel Lengford ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 28 oktyabr 2024-cü il, BBMM | Görüş | Görüş zamanı Azərbaycan multikulturalizm modeli və Mərkəzin fəaliyyəti haqqında qonaqlara məlumatlar verilib, Azərbaycanda din-dövlət münasibətləri və xüsusilə ölkəmizdəki dini etiqat azadlığının vəziyyətinin ABŞ-da qərəzli qiymətləndirilməsi haqqında danışılıb. |
| **31.** | 8 Noyabr – “Zəfər Günü”nə həsr edilən dəyirmi masa təşkil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6 noyabr 2024-cü il, BBMM | Dəyirmi masa | Tədbirdə ölkəmizdə yaşayan etnik icmaların rəhbərləri, dini icmaların nümayəndələri, millət vəkilləri, şəhid ailələri və qazilər iştirak etmişdir. Tədbirdə Mərkəz tərəfindən hazırlanmış “Biz birlikdə güclüyük” sənədli filmi nümayiş olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **32.** | Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətlərini təqdim etmək məqsədi ilə etnik icmalarla fəliyyətin təşkil olunması. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | Görüşlər | Mərkəzin fəaliyyət istiqamətlərindən biri də ölkəmizdəki etnik icmalarla birgə onların dillərinin və mədəniyyətlərinin qorunması istiqamətində fəaliyyətin təşkil olunması və mütəmadi olaraq beynəlxalq təşkilatlara bununla bağlı hesabatların hazırlanmasıdır. Bu istiqamətdə hər ay Mərkəzdə etnik icmaların rəhbərləri ilə mütəmadi görüşlər təşkil edilir. |
| **33.** | İşğaldan azad olunmuş ərazilərdə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun tərkibində fəaliyyətin təşkil olunması. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | | İşçi qrupunun tərkibində dəfələrlə işğaldan azad olunmuş ərazilərimizə səfərlər təşkil olunmuş, dağıdılmış və saxtalaşdırılmağa cəhd olunmuş mədəni irs nümunələrinə baxış keçirilmiş, hesabatlar və arayışlar hazırlanmışdır. Bu fəaliyyət yeni layihələrin formalaşmasına təkan olmuşdur. |

## II bölmə

## Beynəlxalq konfrans, dəyirmi masa, seminar və tədbirlər

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.** | Cənubi Koreyanın İNHA Univeristeti ilə əməkdaşlıq müqaviləsi imzalanıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İNHA Universiteti | 29 fevral, 2024-cü il, BBMM | Anlaşma Memorandumu | Müqavilə “Multikulturalizm və interkulturalizm” kursunun inteqrasiyasını əhatə edir. Bu çərçivədə kurs iştirakçılarına Azərbaycan multikulturalizmi tədris olunacaq. Kursa magistr, fəlsəfə doktoru və yerli mütəxəssislər dinləyici kimi cəlb olunacaqlar. |
| **2.** | "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə” mövzusunda II Beynəlxalq elmi konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu, Bakı Təşəbbüs Qrupu | 7-11 mart, 2024-cü il, Bakı şəhəri, Şuşa şəhəri | Beynəlxalq elmi konfrans | İki gün davam edən konfransa 120-dən çox xarici qonaq qatılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev konfrans iştirakçılarına müraciət ünvanlamışdır. İslamofobiya beynəlxalq elmi konfransı hər il mart ayında “Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü”nə həsr olunmuş şəkildə keçirilir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.** | “Sabahın liderləri: Gənclər sivilizasiyaların toqquşmasına qarşı” mövzusunda XIV Beynəlxalq Multikulturalizm Qış Məktəbi keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11-18 mart 2024-cü il, Bakı, Quba, Qusar şəhərləri | Beynəlxalq Multikulturalizm Qış Məktəbi | 12 ölkədən 25-ə yaxın gəncin iştirak etdiyi qış məktəbində elmi seminarlar təşkil olunmuş, eyni zamanda ölkəmizdə fəaliyyət göstərən icmalarla, dövlət qurumları ilə görüşlər təşkil olunmuş və dini ibadətgahlara ziyarətlər həyata keçirilmişdir. |
| **4.** | ABŞ-ın Yuta Ştatının Briqam Younq Universiteti tələbələrinin Azərbaycana səfəri təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Briqam Younq Universiteti | 18-23 mart 2024-cü il, Bakı, Adam, Şuşa şəhərləri | Beynəlxalq seminarlar | Səfərin məqsədi ABŞ-da Azərbaycan dili və multikulturalizmini öyrənən tələbələrə işğaldan azad olunmuş ərazilərimiz haqqında geniş bilgi vermək və dağıdılmış mədəni irsimiz ilə tanış etmək idi. Səfər çərçivəsində elmi mühazirələr və rəsmi görüşlər də təşkil olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5.** | "Azərbaycanda xristian irsi" sənədli filmi Albaniyanın Dövlət Televiziyasında yayımlanıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11 aprel 2024-cü il, Albaniya, Tirana | Xüsusi verliş | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətinin, adət-ənənələrinin təbliğ edilməsi" layihəsi çərçivəsində hazırladığı "Azərbaycanda xristian irsi" sənədli filmi Albaniyanın Dövlət Radio Televiziyasında yayımlanıb. Mərkəz tərəfindən hazırlanan sənədli filmdə Azərbaycanda yaşayan xristianlar, onların həyat tərzi, adət-ənənələri, mədəniyyəti barədə geniş məlumat verilir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **6.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ATƏT regionunda antisemitizmlə mübarizəyə həsr olunmuş beynəlxalq konfransda iştirak edib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 16 aprel 2024-cü il, ATƏT | Beynəlxalq konfrans | Berlin Bəyannaməsinin (Berlin Bəyannaməsi 28-29 aprel 2004-cü il tarixlərində ATƏT-in Antisemitizm üzrə ikinci konfransında qəbul olunub) 20 illiyinə həsr olunan konfransda antisemitizmlə mübarizədə irəliləyişlər nəzərdən keçirilib, davamlı problemlərin effektiv şəkildə necə həll oluna biləcəyi müzakirə olunub. Tədbirdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aytən Qəhrəman iştirak edib, Azərbaycandakı multikultural mühit və yəhudilərin həyat tərzi barədə məlumat verib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **7.** | “Qafqaz Albaniyası: Etnoarxeologiya, yazılı mənbələr və tarixi abidələr” mövzusunda XI Beynəlxalq elmi konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Tarix və Etnologiya İnstitutu, Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası (SEBA) və Alban-udi xristian icması | 19-20 aprel 2024-cü il, Hadrut qəsəbəsi, Bakı şəhəri | Beynəlxalq elmi konfrans | Konfransın keçirilməsində məqsəd dünya albanşünaslığının görkəmli nümayəndələrini bir araya gətirməklə səmərəli elmi müzakirələr aparmaqdır. Konfrans iştirakçılarının eyni zamanda Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə də səfərləri təşkil olunmuş və oradakı Alban məbədləri ziyarət olunmuşdur. Bölmə iclaslarında Türkiyə, Qazaxıstan, Özbəkistan, Cənubi Koreya, Rusiya, Polşa, İtaliya, Gürcüstan, Almaniya, Fransa, Kanada, ABŞ və Litvadan olan albanşünas mütəxəssislər iştirak edib. |
| **8.** | “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Müxtəlifliyin qorunması: Multikultural dünyada problemlərin həlli və qlobal əməkdaşlığın təşviqi” adlı sessiya təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 1-3 may 2024-cü il, Bakı şəhəri | Beynəlxalq konfrans | Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ənənəvi olaraq multikulturalizm paneli Mərkəz tərəfindən təşkil olunub. Paneldə 30 dan çox xarici ölkədən mütəxəssis iştirak edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **9.** | Gürcüstanın Tbilisi şəhərində keçirilən “Bölünmüş dünyada körpülərin qurulması: Dialoq və Anlaşma vasitəsilə ürəklərin diplomatiyası” adlı beynəlxalq konfransda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Briqam Younq Universiteti | 10 may 2024-cü il, Tbilisi şəhəri | Beynəlxalq konfrans | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsini müdiri, dosent İrina Kunina “Müəllimlərin və ictimai liderlərin təlimi: Multikultural təhsil dinlərarası dialoqu necə təşviq edir” mövzusunda məruzə edib. |
| **10.** | Polşada “Azərbaycanda xristian irsi” mövzusuna həsr edilən sərgi təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Alban-Udi Xristian Dini İcması, Azərbaycanın Polşadakı Səfirliyi | 25-27 may 2024-cü il, Polşa, Varşava | Sərgi Görüşlər | Polşa Respublikasına Azərbaycanda fəaliyyət göstərən xristian dini icmaların nümayəndələri ilə birgə səfər zamanı sərginin təşkili ilə yanaşı Varşava arxiyepiskopu kardinal Kazimierz Niç, Xristian İlahiyyat Akademiyasının dekanı Yerji Ostapçuk və Varşavanın Wola rayonunun Pravoslav Kilsəsinin baş keşişi Adam Misjuk ilə görüşlər keçirilib. Eyni zamanda Azərbaycanın Müstəqillik Günü Varşava şəhərində təntənə ilə qeyd olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **11.** | “Euronews” kanalı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 10 illik yubileyi ilə bağlı xüsusi proqram hazırlayaraq yayımlayıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Euronews” kanalı | 30 may 2024-cü il | Xüsusi proqram | Videosüjetdə BBMM-in icraçı direktoru Rəvan Həsənov Azərbaycanın coğrafi və tarixi kontekstində ölkə daxilində etnik, din və dil müxtəlifliyinin zənginliyindən danışıb. O, mədəniyyətlərarası və dinlərarası dialoqu inkişaf etdirməyə yönəlmiş təhsil və qlobal layihələr vasitəsilə bu müxtəlifliyi qorumaq və təşviq etmək istiqamətində BBMM-in gördüyü işlər haqqında məlumat verib. |
| **12.** | Rumıniyanın Aleksandr İoan Kuza Universitetində fəaliyyət göstərən Azərbaycan Multikulturalizm Mərkəzi Azərbaycan ədəbiyyatına həsr olunmuş tədbirdə Azərbaycanın Müstəqillik Gününü qeyd edib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aleksandr İoan Kuza Universiteti | 31 may 2024-cü il, Rumıniya | Dəyirmi masa | “Müstəqillik Günü” ilə bağlı tədbir “Azərbaycan multikulturalizmi” fənnini öyrənən tələbələrin təşəbbüsü ilə təşkil olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **13.** | İSESKO-nun Baş qərargahında “Quran və Qərb: Gələcəyə doğru rasional yanaşma” mövzusunda təşkil olunmuş konfransda Mərkəzin icraçı direktoru Rəvan Həsənovun xüsusi seminarı təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İSESKO | 10 iyul 2024-cü il, Mərakeş Krallığı, Rabat | Beynəlxalq seminar | BBMM-in icraçı direktoru R.Həsənov səfər çərçivəsində ICESCO-nun Baş direktoru Salim Əl-Maliklə və Mərakeşin Gənclər, Mədəniyyət və Kommunikasiya Nazirliyinin Baş Katibi Samira Lemlizi ilə görüşüb və gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. |
| **14.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun Malayziyaya işgüzar səfəri çərçivəsində ölkənin baş naziri Ənvər İbrahimlə görüşü təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 17 iyul 2024-cü il, Malayziya, Kuala-Lumpur | Görüş | Görüş zamanı Baş nazirə Mərkəzin fəaliyyəti haqqında geniş məlumat verilib və Mərkəzin nəşrləri hədiyyə olunub. Eyni zamanda İslamofobiya ilə mübarizədə qarşılıqlı əməkdaşlıq məsələsi əsas müzakirə mövzusu olubdur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **15.** | Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutunda (ISTAC-IIUM) keçirilən "İslamofobiya və Təhsil" mövzusunda konfransda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 17-18 iyul 2024-cü il, Malayziya, Kuala-Lumpur | Beynəlxalq Konfrans | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov beynəlxalq dəyirmi masada məruzə ilə çıxış edib və tədbirin 2-ci günü isə “Birgə tərəfdaşlıqların araşdırılması” mövzusunda bölmə iclasının moderatorluğunu həyata keçirib. |
| **16.** | “XXI əsrdə Mərkəzi Asiya ölkələrində mədəniyyətlərin qonşuluğu” mövzusunda beynəlxalq konfransda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 15 avqust 2024-cü il, Qazaxıstan, Astana | Beynəlxalq Konfrans | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aytən Qəhrəman tədbirdə məruzə ilə çıxış edib. Qeyd edək ki, XXI əsrdə Mərkəzi Asiya ölkələrində mədəniyyətlərin qonşuluğu” mövzusunda keçirilən onlayn beynəlxalq konfransın əsas məqsədi dinlərarası və mədəniyyətlərarası dialoq qurulmasında maraqlı tərəflərin regional səylərini birləşdirmək, o cümlədən dinlərarası dialoqun təşviqində Mərkəzi Asiya ölkələrinin səmərəli tərəfdaşlığını artırmaq olub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **17.** | “Heç kimi unutmayın: insanlar və planet üçün tərəfdaşlıq” mövzusuna həsr olunan G20 Dinlərarası Forumunda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İF20 | 19-22 avqust 2024-cü il, Braziliya | Beynəlxalq Forum | Forumda Mərkəzin icraçı direktoru Rəvan Həsənovun məruzəsi “Dini savadlılığın araşdırılması” panelinin gündəliyinə daxil edilib.<br>Rəvan Həsənov Forum çərçivəsində Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Yetmişlər Kvorumunun üzvü ağsaqqal Ahmed Salem Korbitt, G20 Dinlərarası Forumunun Prezidenti professor Kole Durhamla görüşüb. Görüşlərdə Azərbaycanın multikulturalizm siyasəti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti haqqında ətraflı məlumat verilib, qarşılıqlı əməkdaşlıq müzakirə olunub.<br>Rəvan Həsənov Forum çərçivəsində G20 kanalına da müsahibə verib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **18.** | "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" adlı beynəlxalq konfransda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Təşəbbüs Qrupu | 9 sentyabr 2024-cü il, Bakı şəhəri | Beynəlxalq konfrans | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri, professor Aytən Qəhrəman beynəlxalq konfransda məruzə ilə çıxış edib. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən konfransda Qəmər Adalarında Fransanın müstəmləkəçilik tarixi, Mayotun Fransa tərəfindən işğalı və bunun nəticəsində qəmərlilərə vurulmuş ziyan, Fransanın bu bölgədə müstəmləkəçilik siyasətinin geosiyasi və iqtisadi maraqları, habelə Qəmər Adaları İttifaqının Mayot adası ilə bağlı beynəlxalq təşkilatların mövqeyi müzakirə olunub. |
| **19.** | XX Beynəlxalq Müsəlman Forumunda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 20-22 sentyabr 2024-cü il, Rusiya Federasiyası, Moskva şəhəri | Beynəlxalq Forum | Forumda Mərkəzin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib və Azərbaycanın islamofobiya ilə mübarizədə oynadığı rolu xüsusi vurğulayıb. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **20.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Moskva İslam İnstitutu arasında anlaşma memorandumu imzalanıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 20 sentyabr 2024-cü il, Rusiya Federasiyası, Moskva şəhəri | Beynəlxalq Əməkdaşlıq Memorandumu | Memorandumu Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Damir Muxetdinov imzalayıblar. Anlaşmaya əsasən Azərbaycan multikulturalizmi fənni gələn ildən Moskva İslam İnstitutunda da tədris olunmağa başlayacaqdır. |
| **21.** | “Sülhün, dialoqun və tolerantlığın qorunmasında mədəni irsin rolu” adlı XV Beynəlxalq Multikulturalizm Məktəbi təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 23 sentyabr-1 oktyabr 2024-cü il Bakı, Şuşa, Laçın, Ağdam şəhərləri | Beynəlxalq Multikulturalizm Məktəbi | Beynəlxalq Multikulturalizm Məktəbində 21 ölkədən - Azərbaycan, Rusiya, Türkiyə, Çin, Serbiya, Yaponiya, Qazaxıstan, Rumıniya, Moldova, Özbəkistan, Hindistan, Mərakeş, Bolqarıstan, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Qırgızıstan, İraq, Pakistan, Əlcəzair, Mozambik və Konqodan olan 30-a yaxın tələbə iştirak edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **22.** | “Türk xalqlarını birləşdirən amillər: dəyərlər, rəmzlər və ideyalar” mövzusunda beynəlxalq elmi seminarda Mərkəz təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Türk Akademiyası, Qazaxıstandakı “İctimai rəy” Tədqiqat İnstitutu | 24 sentyabr 2024-cü il, Qazaxıstan, Astana, Onlayn format | Beynəlxalq elmi seminar | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin baş məsləhətçisi Araz Qurbanov məruzə ilə çıxış edib. Seminarda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan ekspertlər, TÜRKSOY-un, Qazaxıstan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar İnstitutunun, Türkiyədəki Binəli Yıldırım Universitetinin, Qazaxıstan Tətbiqi Etnosiyasi Tədqiqatlar İnstitutunun, Avrasiya İnteqrasiya İnstitutunun, “Yunis Əmrrə" İnstitutunun, “Otandastar” Fondunun, Dövlət Tarixi İnstitutunun, L.Qumilyov adına Universitetin, Nazarbayev Universitetinin, M.Narikbayev Universitetinin, Astana İT Universitetinin mütəxəssisləri iştirak ediblər. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **23.** | Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində “Azərbaycanın multikulturalizm modelinin və mədəniyyətlərarası dialoqun təqdimatı” mövzusunda dəyirmi masa təşkil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | 17 oktyabr 2024-cü il, Bolqarıstan, Sofiya | Dəyirmi masa | Tədbirdə Azərbaycan Respublikasının Bolqarıstan Respublikasındakı səfiri, alimlər, müxtəlif müəssisələrin nümayəndələri və tələbələr mövzu ətrafında fikir mübadiləsi aparıblar. Azərbaycan Mərkəzinin müdiri Sofiya Şıqayeva-Mitreska multikulturalizm mövzusunun müasir dünyada çox aktual olduğunu və Bolqarıstanda Azərbaycanın multikulturalizm dəyərlərinin və tolerantlığın təbliğində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin mühüm rol oynadığını vurğulayıb. Bununla bərabər, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil edilən Qış və Yay Məktəblərində iştirak edən bolqar tələbələrin Azərbaycanın dəyərləri ilə yerində tanış olmaq imkanını əldə etdikləri bildirilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **24.** | “Multikulturalizm və regionşünaslıq məsələləri müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafı" mövzusuna həsr olunmuş dəyirmi masa keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 28-29 oktyabr 2024-cü il, Rusiya Federasiyası, Samara, Onlayn format | Dəyirmi masa | Rusiyanın Samara Dövlət Texniki Universitetinin təşkilatçılığı ilə “Mövcud problemlər və tendensiyalar müasir iqtisadiyyatın inkişafı” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Konfransın bir bölməsi də “Multikulturalizm və regionşünaslıq məsələləri müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafı" mövzusuna həsr olunmuşdur. Konfrans çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri İrina Kunina və Layihələr şöbəsinin məsləhətçisi Tahirə Ələsgərova çıxış edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **25.** | “Müasir dünyada etnosiyasi tədqiqatlarda mövcud tendensiyalar: nəzəri və tətbiqi aspektlər” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qazaxıstan Xalq Assambleyası və Lev Qumilyev adına Avrasiya Milli Universiteti | 1 noyabr 2024-cü il, Qazaxıstan, Astana, Onlayn format | Beynəlxalq elmi konfrans | Qazaxıstanın Astana şəhərində keçirilən konfransa Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin baş məsləhətçisi Araz Qurbanov onlayn formatda qoşularaq “Etnosiyasi və etnomədəni inteqrasiya prosesində etnik stereotiplərin rolu” mövzusunda məruzə ilə çıxış edib. |
| **26.** | Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammitində Mərkəz təmsil olunub. | Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Müsəlman Ağsaqqalları Şurası, BBMM | 5-6 noyabr 2024-cü il, Bakı şəhəri | Beynəlxalq konfrans | Bakı Sammitinin birinci günündə Mərkəzin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib və ikinci günündə isə tədbirin moderatorluğunu əyata keçirib. |
| **27.** | COP29 çərçivəsində, Din povilyonunda “Fəaliyyətdə Dinlərarası Əməkdaşlıq: İnsan vəziyyətini yaxşılaşdırmaq üçün dünya idarəçiliyi” mövzusunda panel müzakirə keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Stirlinq Fondu, Müsəlman Ağsaqqallar Şurası | 12 noyabr 2024-cü il, Bakı şəhəri | Seminar | Panel müzakirələrdə dini liderlərin ekologiyanın qorunmasında rolu, dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyəti müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **28.** | İspaniya Krallığının Maqos Fondunun təşkilatçılığı ilə 14-16 noyabr tarixlərində Malaqa şəhərində "Müdrik İnsanların Xəzinəsi" adlı beynəlxalq sərgidə Mərkəz təmsil olunub. Səfər çərçivəsində Malaqa şəhər muzeyində "Azərbaycan multikulturalizm modeli" adlı xüsusi seminar təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudiləri Dini İcması, Azərbaycan Katolik İcması | 14-16 noyabr 2024-cü il, İspaniya, Malaqa şəhəri | Beynəlxalq sərgi və seminar | Səfər çərçivəsində BBMM-in icraçı direktoru Rəvan Həsənov və Azərbaycandakı dini icmaların nümayəndələri Malaqa Şəhər Şurasının Xarici Əlaqələr üzrə direktoru İzabel Paskual Villamor ilə görüşüb. 16 noyabr - Dünya Tolerantlıq Günü münasibətilə Maqos Fondunun təşkilatçılığı ilə təşkil olunmuş silsilə tədbirlər çərçivəsində BBMM-in rəsmiləri, habelə ölkəmizdəki dini konfessiyaların nümayəndələri Malaqa Şəhər Bələdiyyəsinin rəsmi iqamətgahında şəhər bələdiyyə rəhbəri Fransiska Torrenin birbaşa iştirakı ilə dünyada sülh və birgə yaşayışın təbliğatında göstərilən xidmətlərə görə mükafatlandırma mərasimində sülh mükafatına layiq görülüb. Səfər çərçivəsində təşkil olunmuş xüsusi seminarda isə Malaqa Universitetinin tələbələri, professor və müəllim heyəti iştirak edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **29.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Beynəlxalq Müsəlman Forumunun rəsmi mətbuat orqanı olan "İslamın minarəsi" beynəlxalq jurnalının redaksiya heyətinə daxil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 21 noyabr 2024-cü il | | "İslam Minarəsi" jurnalı Rusiya Federasiyası müsəlmanları tərəfindən geniş oxucu kütləsinə malik olan nəşrdir və eyni zamanda bir çox xarici ölkələrə də göndərilir. |
| **30.** | "Sülhün dayanıqlı inkişafında nailiyyətlərin əldə olunmasında dini liderlərin rolu" mövzusunda iki günlük beynəlxalq konfrans təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qazaxıstanın Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi | 28 noyabr 2024-cü il, Onlayn format | Beynəlxalq konfrans | Real vaxt rejimində keçirilən konfransda Mərkəzin icraçı direktoru Rəvan Həsənov "Ətraf mühitin mühafizəsində dinlərarası dialoqun rolu" mövzusunda məruzə ilə çıxış edib. Növbəti gün isə Mərkəzin müşaviri Aytən Qəhrəman məruzə edib. |
| **31.** | "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" adlı II beynəlxalq konfrans çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə "Mədəni irsin bərpası və qorunması" mövzusunda panel sessiya keçirilib. | BBMM, Qərbi Azərbaycan İcması, Diasporla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, ADA Universiteti | 5-6 dekabr 2024-cü il, Bakı şəhəri | Beynəlxalq Konfrans | Beynəlxalq konfransın təşkilində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaxından iştirak etmiş və tədbirdə Mərkəzin icraçı direktoru Rəvan Həsənov moderatorluq edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **32.** | “Sülh naminə liderlik, nəzəriyyədən təcrübəyə” adlı onlayn seminar keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İSESKO | 19 dekabr 2024-cü il, Onlayn format | Beynəlxalq seminar | Seminarda Mərkəzin icraçı direktoru Rəvan Həsənovun “Mədəniyyətin sülhyaratma prosesində rolu” mövzusunda mühazirəsi təşkil olunub. |

## III bölmə

## Tədris istiqaməti

**I.** 2024-cü ilin sonunadək "Azərbaycan multikulturalizmi" fənni dünyanın 27 və Azərbaycanın 38 nüfuzlu ali məktəbində tədris olunub.

**"Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənnlərinin tədrisi layihəsi**

***2024-cü ildə tədrisin təşkil edildiyi xarici universitetlər***

| № | Universitetin adı | Ölkə | Tarix | Tədris aparan şəxs |
|---|---|---|---|---|
| **1.** | Ural Federal Universiteti | Rusiya | yaz | Prof. Aleksandr Nesterov |
| **2.** | İon Kryange adına Moldova Dövlət Pedaqoji Universiteti (MDPU) | Moldova | yaz | Prof. Ludmila Bejenaru |
| **3.** | İnha Universiteti | Cənubi Koreya | yaz | Leyla Məsimli |
| **4.** | Çeçen Dövlət Pedaqoji Universiteti | Rusiya | yaz | Prof. Betilmerzaeva Maret Muslamovna |
| **5.** | Hokkaydo Universiteti | Yaponiya | payız | Prof.Əlibəy Məmmədov |
| **6.** | Erciyes Universiteti | Türkiyə | payız | Prof. Qafar Mehdiyev |
| **7.** | K.Oxridski adına Sofiya Universiteti | Bolqarıstan | payız | Sofiya Şiqayeva |
| **8.** | Şri Şri Universiteti | Hindistan | payız | Dr. Kənan Məmmədov |
| **9.** | Aleksandr İoan Kuza Universiteti | Rumıniya | payız | prof. Ludmila Bejenaru |

**Qeyd:** Azərbaycan Respublikasının Təhsil nazirinin 19.08.2019-cu il tarixli, F-148 nömrəli əmrinə əsasən ölkədaxili bütün ali təhsil məktəblərində "Multikulturalizmə giriş" fənni bakalavr pilləsi üçün əsas fənn olaraq tədris proqramına daxil edilmişdir. Eyni zamanda "Azərbaycan multikulturalizmi" fənni 38 ölkədaxili universitetdə magistr pilləsində tədris olunur.

**II.** Tədris keyfiyyətinin yüksəldilməsi  və müəllimlərin bilik səviyyələrinin artırılması məqsədilə "Multikulturalizmə giriş" və "Azərbaycan Multikulturalizmi" fənlərini tədris edən müəllimlərə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən  ildə iki dəfə, yaz və qış semestrində treninqlər təşkil olunmuşdur. Treninqi uğurla bitirən müəllimlərə müvafiq sertifikatlar təqdim edilib.

27.04.2024 - 25.05.2024-ci il tarix aralığında təşkil olunmuş treninqdə aşağıdakı universitetlərdən və kolleclərdən  olan müəllimlər iştirak edib:

1. Azərbaycan Dövlət Pedaqoji Universiteti
2. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman akademiyası
3. Odlar Yurdu Universiteti
4. Bakı Avrasiya Universiteti
5. Sumqayıt Dövlət Universiteti
6. Azərbaycan Universiteti
7. ADNSU nəzdində Bakı Neft Energetika Kolleci
8. Şuşa Humanitar kolleci

***Bu treninqdə  ümumilikdə 20 müəllim iştirak etmişdir.***

07.10.2024 - 11.10.2024-cü il tarix aralığında təşkil olunmuş treninqdə Quba Soyqırımı Memorial Kompleksi və "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları iştirak edib.

***Bu treninqdə  ümumilikdə 24 şəxs iştirak etmişdir.***

**III.** Tələbələrin bilik və bacarıq səviyyəsinin müəyyənləşdirilməsi, eyni zamanda onların bu fənnin tədrisi ilə bağlı sual, təklif və iradlarının öyrənilməsi məqsədilə, Azərbaycanda ali məktəblərin bakalavr səviyyəsində tədris edilən "Multikulturalizmə giriş" fənninin monitorinqi həyata keçirilmişdir. Layihələr şöbəsinin təkilatçılığı ilə monitorinqlər qış semestrində 06.12.2024-cü il tarixindən 25.12.2024-cü il tarixinədək aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilib:

1.Azərbaycan Memarlıq və İnşaat Universiteti

2.Azərbaycan Universiteti

3.Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

4.Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitet

5.Bakı Slavyan Universiteti

6. Sumqayıt Dövlət Universiteti

7. Azərbaycan Dövlət İqtisad Universiteti

8. Azərbaycan Dövlət Pedaqoji Universiteti

**IV.** Xarici ölkə universitetlərində "Azərbaycan Multikulturalizmi" fənninin tədrisi layihəsinin həyata keçirilməsi məqsədi ilə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi regionun bir sıra qabaqcıl ali məktəbləri ilə ikitərəfli danışıqlar aparmış, nəticə olaraq aşağıda adları qeyd olunan ölkələrlə müqavilələrin imzalanması planlaşdırılır.

1.İspanya və Almanyanın bəzi nüfuzlu univesitetleri

2. Polşanın Varşava Universiteti

**V.** 28.11.2024-cü ildə Samara Dövlət Texniki Universiteti və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə onlayn formatda "Müasir iqtisadiyyatın aktual problemləri və inkişaf meylləri" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransda Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri İrina Kunina "Etnomədəni kimliyin

mahiyyəti və dinamikası” mövzusunda və Layihələr şöbəsinin məsləhətçisi Ələsgərova Tahirə “Multikultural cəmiyyətdə təhsil” mövzusunda çıxış edib.

**VI.** “Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə mövzusunda keçirilən beynəlxalq konfransa və 05.11.2024-cü il tarixində həyata keçirilmiş COP29 çərçivəsində “Dini Liderlərin Qlobal Sammiti” adlı beynəlxalq konfransa ölkənin qabacıl universitetlərindən 30 könüllü tələbənin cəlb edilməsi.

**VII.** Noyabrın 7-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycan multikulturalizmi” fənninin tədris olunduğu xarici ölkə universitetlərində “8 Noyabr – Zəfər günü”nə həsr olunan tədbirlər həyata keçirilib. Belə ki, Rumıniyanın Yassı Universitetindəki Azərbaycan Multikulturalizm Mərkəzinin direktoru, professor Ludmila Bejenaru, Yaponiyada Hokkaydo Universitetində konfliktologiya elmləri üzrə PHD təhsili almış yaponşünas-alim, Yaponiya hökuməti dövlət təqaüdçüsü Əlibəy Məmmədov, Bolqarıstanda Kliment Orxidski Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin direktoru Sofiya Şiqayeva, Hindistanda Şri Şri universitetinin müəllimi Kənan Məmmədov və Türkiyədə Ərciyəz Universitetinin professoru Qafar Mehdiyev tədbir iştirakçılarına 44 günlük Vətən müharibəsi, Şanlı Zəfərimiz haqqında ətraflı məlumat veriblər. Həmçinin Yaponyanın Seijo və Hokkaydo Universitetlərində Azərbaycanın coğrafiyası, tarixi, iqtisadiyyatı, mədəniyyəti, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları, Qarabağ erməni işğalından azad olunduqdan sonra burada həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs olunan silsilə tədbirlər həyata keçirilib.

**VIII.** 5-6 may 2024-cü il tarixlərində Layihələr şöbəsinin müdiri İrina Kunina Gürcüstanın Tbilisi şəhərində keçirilən “Bölünmüş dünyada körpülərin qurulması: Dialoq və Anlaşma vasitəsilə ürəklərin diplomatiyası” adlı beynəlxalq konfransda iştirak edib. ABŞ-ın Briqam Younq Universitetinin Beynəlxalq Hüquq və Din Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə İrina Kunina “Müəllimlərin və ictimai liderlərin təlimi: Multikultural təhsil dinlərarası dialoqu necə təşviq edir” mövzusunda məruzə edib.

**IX**. Bolqarıstanda Bakı Slavyan Universitetinin, Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin və Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin birgə təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycanın multikulturalizm modelinin və mədəniyyətlərarası dialoqun təqdimatı” mövzusunda dəyirmi masa təşkil edilib. Konfransda Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri İrina Kunina onlayn formatda “Azərbaycan multikulturalizmi modeli” mövzusunda çıxış edib.

**IV bölmə**

**BBMM tərəfindən 2024-cü ildə hazırlanan və çap edilən nəşrlər**

| № | Nəşrin adı | Tarix | Nəşrin dili | Qeydlər |
|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin “International Journal of Multiculturalism” (Beynəlxalq Multikulturalizm Jurnalı) adlı beynəlxalq elmi jurnalının iki sayı nəşr edilib. | Aprel-dekabr | İngilis dili | Mərkəz tərəfindən ildə iki dəfə olmaqla buraxılan elmi jurnal regionda bu istiqamətdə ilk elmi nəşr sayılır. Bütün beynəlxalq standartlara uyğun olaraq hazırlanan elmi nəşrin redaksiya heyəti bu sahədə tanınmış xarici mütəxəssislərdən formalaşıb. |
| **2.** | “Musa Kalankatlıya əsasən Qafqaz Alban kilsəsinin tarixi” adlı kitab nəşr olunmuşdur. | İyul | İngilis dili | Nəşr Aleksiy Nikonorovun müəllifliyi ilə nəşr olunmuş və kitabda elmi şəkildə erməni saxtakarlığı ifşa olunmaqdadır. Kitabda Qafqaz Alban kilsəsi haqqında tarixi faktlar oxuyucuya təqdim olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **3.** | "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda II Beynəlxalq elmi konfransın elmi məqalələri nəşr edilmişdir. | Dekabr | İngilis dili | Cari ilin 8-9 mart tarixlərində Bakı şəhərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və G20 Dinlərarası Dialoq Assosasiyasının birgə təşkilatçılığı ilə 32 ölkənin iştirakı ilə "Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü"nə həsr olunmuş elmi konfrans keçirilmişdir. Daha sonra konfrasda iştirak edən məruzəçilərin məqalələri ingilis dilində Mərkəz tərəfindən nəşr edilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| **4.** | “Qafqaz Albaniyasının etno-mədəni irsi” elmi jurnalının 5-ci buraxılışı nəşrə hazırlanmış və çap mərhələsindədir. | Dekabr | Azərbaycan, rus və ingilis dili | Elmi jurnala Qafqaz Albaniyasının tarixi, arxeoloji, etnoloji, etnoqrafik, memarlıq, mənbəşünaslıq, epiqrafika, linqvistika və numizmatika sahələrində bir sıra problemli məsələlərin araşdırıldığı məqalələr daxil edilib. Rusiya, Gürcüstan, Cənubi Koreya, İtaliya və Azərbaycan alimlərinin araşdırmalarından ibarət topluda ermənilərin Qafqaz Albaniyası irsinin saxtalaşdırması faktlarına da geniş diqqət yetirilib. Elmi jurnal hər il Albanşünaslıq konfransının nəticələri kimi Mərkəz tərəfindən nəşr olunur və yayılır. Jurnal hazırda çap mərhələsindədir. |

| | | | | |
|---|---|---|---|---|
| **5.** | Azərbaycan ədəbiyyatının incilərindən sayılan “Əli və Nino” romanı Ukrayna dilinə tərcümə olunaraq Mərkəz tərəfindən nəşrə hazırlanmış və hal-hazırda çap mərhələsindədir. | Dekabr | Ukrayna dili | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi hər il Azərbaycanda yaşayan azsaylı xalqların dillərində müxtəlif nəşrlər çap edir. Azərbaycan ədəbiyyat nümunələrinin azsaylı xalqların dillərində nəşri etnik icmaların təklifləri əsasında həyata keçirilən layihədir. Qeyd etmək lazımdır ki, “Əli və Nino” romanı 2022-ci ildə Mərkəz tərəfindən ləzgi, talış və udi dillərinə, 2023-cü ildə isə tat dilinə tərcümə olunaraq nəşr edilmişdir. Cari ildə Ukrayna icmasının müraciəti əsasında əsərin Ukrayna dilində çapı hazırlanmış və hal-hazırda çap mərhələsindədir. |
| **6.** | “Land of multiculturalism” adlı fotoalbom nəşrə hazırlanmış və hal-hazırda çap mərhələsindədir. | Dekabr | İngilis dili | Fotoalbomda Azərbaycanda yaşayan azsaylı xalqların həyat tərzini göstərən fotoqraf Etibar Cəfərov tərəfindən çəkilmiş xüsusi şəkillər və hər bir xalqa aid ingilis dilində mətnlər yer almışdır. Fotoalbom daha çox ölkə xaricində yayılmaq üçün hazırlanmışdır. |

| | | | | |
|---|---|---|---|---|
| **7.** | “Dağıdılmış irs: səssiz şahidlər” adlı fotoalbom nəşrə hazırlanmış və hal-hazırda çap mərhələsindədir. | Dekabr | İngilis dili | Fotoalbom Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondunun birgə layihəsi olaraq hazırlanmışdır. Fotoalbomun dizayneri məşhur fotoqraf Reza Deqatidir. Fotoalbom işğaldan azad edilmiş ərazilərimizdəki tarixi-mədəni abidələrin işğaldan əvvəlki və sonrakı vəziyyətini göstərir və daha çox xarici auditoriya üçün hazırlanmışdır. Hal-hazırda çap mərhələsindədir. |

| | | | | |
|---|---|---|---|---|
| **8.** | "Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir" kitabı nəşrə hazırlanmışdır. | Dekabr | Rus dili | Nəşr BBMM-in Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayevin ideya müəllifliyi və önsöz yazısı ilə Xalq yazıçısı Elmira Axundovanın müəllifliyi ilə hazırlanmış, Ulu Öndərin həm birinci hakimiyyət dövrü, həm də ikinci dəfə ölkəyə rəhbərlik etdiyi dövlərdə Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin qorunması istiqamətində gördüyü işlərdən bəhs edir. Nəşr publisistik janrda hazırlanmışdır. Hal-hazırda çapa hazırlanır. |

**V bölmə**

**BBMM-in fəaliyyətinin KİV-də işıqlanması**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2024-cü il ərzində fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq AzTV, CBC Azərbaycan, ATV, Real TV, İTV, Xəzər, Space, ARB 24, Mir TV-Azərbaycan, Qərbi Azərbaycan, AZƏRTAC, BAKU, APA, ANEWZ telekanalları tərəfindən işıqlandırılıb. Bu televiziya kanallarında Mərkəzin həyata keçirdiyi tədbirlərlə bağlı toplam 72 televiziya xəbəri, müsahibə və veriliş hazırlanıb, nümayiş olunub.

Eyni zamanda, BBMM-in icraçı direktoru Rəvan Həsənov Real TV-nin "Real müsahibə", İctimai Televiziyanın "Din və cəmiyyət", AZƏRTAC-ın "Günün mövzusu", Baku TV-nin "Qərbi Azərbaycan xronikası", Qərbi Azərbaycan televiziyasının "Müzakirə vaxtı" verilişlərinin qonağı olub.

Müxtəlif yerli və xarici televiziya kanalları 2024-cü ildə yaranmasının 10 illiyini qeyd edən Mərkəzin fəaliyyətinə dair verilişlər, videosüjetlər hazırlayıblar.

"azertag.az", "azerbaijan-news.az", "yeniazerbaycan.com", "ikisahil.az", "report.az", "oxu.az", "milli.az", "moderator.az", "modern.az", "525.az", "mediapost.az", "az.edu.az", "Tehsil.biz", "missiya.az", "atributinfo.az", "veteninfo.az", "xeberal.az", "adalet.az", "apa.az", "globalinfo.az", "trend.az", "sia.az", "Azerforum.com", "qafqazinfo.az", "xalqqezeti.az", "publika.az", "far.az" "baymedia.az", "yenicag.az", "azxeber.az", "cebheinfo.az", "axar.az", "unikal.az", "redactor.az", "ajmedia.info", "qaynarinfo.az", "aztime.az" və digər saytlar il ərzində BBMM-in ölkə daxilində və xaricdə keçirdiyi konfranslar, görüşlər haqda məlumatları, yerli və xarici alimlərin, mütəxəssislərin müsahibələrini, təhlillərini davamlı olaraq yayıblar. Mərkəzin fəaliyyətini əhatə edən 63 məlumat hazırlanıb. Qeyd olunan saytlarda bu məlumatlarla bağlı 340 xəbər yayımlanıb. Mərkəzin 2024-cü ildə ikinci dəfə təşkil etdiyi 15 mart - İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunan beynəlxalq konfransla bağlı bütün yerli media olqanları geniş informasiya təqdim ediblər, həmçini dünyanın 18 ölkəsində konfrans haqda 60-dan artıq xəbər, videosüjet, məqalə təqdim olunub.

2024-cü il ərzində "Azərbaycan", "Xalq qəzeti", "Yeni Azərbaycan", "Bakinskiy raboçiy", "İki Sahil", "525-ci qəzet", "Səs" və "Mədəniyyət" qəzetlərində Mərkəzin fəaliyyətinə dair məqalə və məlumatlar dərc olunub.

2018-ci ilin oktyabr ayından etibarən yayımlanan və BBMM-in Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan “Multikulturalizm” verilişi cari il ərzində də davam edib. 2024-cü ildə “Multikulturalizm” verilişinin 9 buraxılışı yayımlanıb. Verilişlər Azərbaycanın ərazi bütövlüyünün qorunmasında xalqımızın nümayiş etdirdiyi milli birlik və həmrəylik, Qafqaz Albaniyası irsinin öyrənilməsi layihəsi, bu çərçivədə keçirilən növbəti beynəlxalq konfransın işi, “Sabahın liderləri: Gənclər sivilizasiyaların toqquşmasına qarşı” adlı XIV Beynəlxalq Multikulturalizm Qış Məktəbinin fəaliyyəti, dünyada dinlərarası harmoniya, ölkəmizdəki tolerant və multikultural mühit mövzularına həsr olunub. Həmçinin verilişlərdə Multukulturalizm Mərkəzinin 10 illik fəaliyyəti, həyata keçirdiyi layihələr, Türk dünyasının mədəni irsi, türkdilli dövlətlər arasındakı mədəni əlaqələrin inkişafı, Qərbi Azərbaycanın dağıdılan, saxtalaşdırılan irsi haqda həqiqətlər, mədəni irsin təbliği mövuzusunda Bakı, Şuşa, Laçın və Ağdamda baş tutan “Sülhün, dialoqun və tolerantlığın qorunmasında mədəni irsin rolu” adlı XV Beynəlxalq Multikulturalizm Məktəbinin işi, eləcə də, müxtəlifliyin qorunması, islamofobiya ilə mübarizə və bu mövzuda keçirilən beynəlxalq elmi-praktik konfransdan da bəhs edilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2024-cü il ərzində fəaliyyəti barədə bütün məlumatlar Mərkəzin 3 dildə - azərbaycan, rus və ingilis dillərində yayılan http://multikulturalizm.gov.az rəsmi saytında (208 dəfə), Mərkəzin feysbuk səhifəsində 3 dildə - Azərbaycan, rus və ingilis (885 dəfə), rəsmi tvitter səhifəsi (372 dəfə), rəsmi instaqram səhifəsi (183 dəfə) və rəsmi yutub (45 dəfə) səhifəsində yerləşdirilib. Cari il ərzində Azərbaycan multikulturalizmi ilə bağlı, eyni zamanda BBMM-in təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbirlər haqda ABŞ, Türkiyə, Almaniya, Misir, Yaponiya, Niderland, Mərakeş, İspaniya, Çin, İordaniya, Pakistan, Nigeriya, Gürcüstan, Rusiya, Fransa, Ermənistan, Rumıniya və İsrailin xəbər saytlarında məqalələr, xəbərlər, habelə qeyd olunan ölkələrin televiziyalarında müxtəlif dillərdə süjetlər yer alıb.

multiculturalaz

multiculturalismbaku

bbmm_multikulturalizm

@bakuinternationalmulticult7889